# Fərqli düşüncə

Xüsusi daycest buraxılışı

Xəbər və fikir jurnalı • №31 (71) • 09.01.2012



AzadliqRadiosu.az®

Cəmil Həsənli: **«Artıq rüşvət bank hesablarına köçürdülür»** səh.2

**İctimai Palatanın yeni rəhbərliyi seçildi** səh.3

**Şahdağ Turizm Kompleksində torpaq narazılığı** səh.4

**Обращение в международные организации о Рафике Таги** səh.7

Bəxtiyar Hacıyev: **Kovatia müxalifətinə** səh.12

**ABŞ-ın Olimpiadaya göndərəcəyi ilk hicablı qız** səh.14

**Kosmik aparat hara düşəcək?** səh.15


## Baba Rzayevin ailə biznesi



Uzaq ölkələrdən Azərbaycana qonaq gətirən təyyarələrin yolunu işıqlandıran projektorlardan tutmuş, Bakı sakinlərinin evində közərən lampalara qədər, ölkə paytaxtında yandırılan elektrik enerjisinin hər kilovatından qazanan bir ailə var.

səh.9-10

## Rəsul Quliyev: "Hökumətə təkliflər vermişəm..."



*"Mən özüm üçün Azərbaycanda hansı sistemin olacağını müəyyənləşdirmişəm. O dediyim struktur hamı üçün eyni səviyyədə işləyəcək. Adını çəkdiyiniz intellektual qrupların daha çox qazanmaq şansları olacaq. Əksinə, sivil ölkələrdə olduğu kimi onlar kasıblara, xəstələrə kömək üçün öz pullarından ayıracaqlar".*

səh.5

## Zeynal Bağırzadəyə işgəncə verilibmi?



İşgəncələrə Qarşı Azərbaycan Komitəsinin sədri Elçin Behbudov AzadlıqRadiosuna bildirib ki, komitənin Naxçıvan nümayəndəsi həbsdə olan Zeynal Bağırzadə ilə görüşüb, onun fikirlərini öyrənib. Yaxınları isə deyilən xəbərlərə inanmır.

səh.8

**Pul qripi**



# Ramiz Mehdiyev «Azərbaycan 2020» planlarından danışıb


Ramiz Mehdiyev

**«Azərbaycan 2020: gələcəyə baxış» İnkişaf Konsepsiyasının hazırlanması barədə» İlham Əliyevin Sərəncamı ölkəmizin yeni inkişaf mərhələsinə qədəm qoyması ilə bağlıdır». Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev sənədi şərh edərkən belə deyib. Onun sözlərinə görə, Konsepsiya hazırlanarkən xarici mütəxəssislər cəlb olunmalı, dövlət və ictimai təşkilatlarla geniş müzakirələr aparılmalıdır.**

Ramiz Mehdiyevin sözlərinə görə, yanvarda Konsepsiyanı hazırlayacaq komissiyanın və işçi qrupun tərkibi də müəyyən ediləcək. AzərTAca danışan Ramiz Mehdiyev Konsepsiya haqda geniş məlumat verib. O bildirib ki, inkişaf mərhələsinin əsas xüsusiyyəti qarşıda duran məqsədlərin daha yüksək səviyyəli, çoxşaxəli olması və zamanın çağırışlarını nəzərə alınması ilə bağlıdır. Bu da ciddi elmi əsaslara söykənən ən müasir idarəetmə üsullarının tətbiqini tələb edir. Strateji yanaşmaların isə daha uzun müddəti əhatə etməsi zərurətini yaradır.

**«DEMOKRATİYA İNSTİTUTLARININ DAHA DA İNKİŞAF ETDİRİLMƏSİ»**

Prezident Administrasiyasının rəhbəri müxtəlif sahələr üzrə Konsepsiyanın hazırlanmasının əsas istiqamətlərini də şərh edib. O deyib ki, əsas istiqamətlər bunlardır: siyasi sahədə dövlət müstəqilliyinin daha da gücləndirilməsi, ölkənin ərazi bütövlüyünün təmin olunması və qorunması, demokratiya institutlarının daha da inkişaf etdirilməsi, dövlətin funksiyalarının yerinə yetirilməsinin və vətəndaş cəmiyyəti təsisatlarının rolunun gücləndirilməsi, qanunun aliliyini tam təmin edən mexanizmlərin təkmilləşdirilməsi.

**BÜDCƏDƏ TƏBİİ EHTİYATLAR AMİLİ AZALDILMALIDIR**

Ramiz Mehdiyev Konsepsiyanın iqtisadi sahədə əsas istiqamətlərindən də danışıb. O deyib ki, ilk növbədə qeyri-neft sektorunun genişləndirilməsi hesabına davamlı iqtisadi inkişafa nail olmaq lazımdır. İqtisadiyyatın inkişaf istiqamətləri şaxələndirilməlidir. Ümumi daxili məhsulun tərkibində və dövlət büdcəsinin formalaşmasında təbii ehtiyatlar amili azaldılmalı və qeyri-neft amilinin üstünlüyü təmin edilməlidir.

**ORTA TƏBƏQƏ GENİŞLƏNSİN VƏ...**

Konsepsiyada sosial istiqamətlər də unudulmayacaq: yoxsulluq səviyyəsinin minimuma endirilməsi istiqamətində yürüdülən siyasətin davam etdirilməsi, aztəminatlı ailələrin etibarlı sosial müdafiəsinin təmin olunması, orta təbəqənin genişləndirilməsi, onun cəmiyyətdə rolunun və əhəmiyyətinin artırılmasına nail olunması.

**TƏHSİLİN, SƏHİYYƏNİN...**

Ramiz Mehdiyev bunu da deyib ki, təhsilin, səhiyyənin, humanitar sahələrin inkişafı, insan amilinin yüksək inkişaf səviyyəsinə çatdırılması, Azərbaycan xalqının bilik və bacarıqlarının səmərəli tətbiqi mexanizmlərinin qurulması, qloballaşmanın üstünlüklərindən yararlanan önləyici inkişaf modelinə keçidin təmin edilməsi də əsas istiqamətlərdəndir.

# Cəmil Həsənli: «Artıq rüşvət bank hesablarına köçürdülür»

**«Ziyalılar Forumu»nun üzvü, professor Cəmil Həsənli 2012-ci ildə Azərbaycan ziyalısının fəaliyyətinə dair fikirlərini AzadlıqRadiosuna bölüşüb:**

- 2011-ci ildə bir neçə ziyalının milli maraqlar baxımından bir araya gəlib siyasi istəklərdən kənar, çox zəruri məsələləri ilə bağlı mövqe nümayiş etdirməsi məndə ümidlər yaradıb. Ümidliyəm ki, 2012-ci ildə də bu davam edəcək və bu prosesin genişlənməsinə şərait yaradacaq.

*- «Ziyalılar Forumu»nun yığıncaqlarının baş tutmasına müəyyən problemlər yaranır və Eldar Namazov bunu süni əngəllər adlandırır. Sizcə, bu əngəllər forumun fəaliyyətinə mənfi təsir göstərə bilər?*

- Mən də hesab edirəm ki, bu, süni əngəllərdir və "Hyatt Reycens" kimi dünya səviyyəli otellər şəbəkəsində bu cür hadisənin baş verməsi xoşagəlməz haldır. Hər bir şirkət, kompaniya öz imicini qorumalıdır. Bizim istəklərimiz bu millətin maraqları ilə bağlıdır. Biz deyirik rüşvət, korrupsiya olmasın. Ölkədə islahatlar aparılsın. Azad, ədalətli, demokratik seçkilər keçirilsin. Vətəndaşların hüquqlarına hörmətlə yanaşılsın. İşğal altında olan Azərbaycan torpaqlarının azad olunması istiqamətində əməli addımlar atılsın. Axı bu gün Azərbaycan bəlkə də dünyanın yeganə ölkəsidir ki, artıq rüşvət bank hesablarına köçürdülür. Belə bir rüsvayçılığı təsəvvür etmək də çətindir. Rüşvət o qədər qanuniləşib, o qədər adi hal alıb ki... Vergilər Nazirliyi kiçik müəssisələrdən, iş adamlarından, biznesmenlərdən rüşvət tələb edir və onlara hesab nömrəsi verir ki, pulu ora keçirtsinlər. Yəni bu, artıq rüşvətin dövlət siyasəti olmasının açıq, aydın təzahürüdür.



Cəmil Həsənli

*- Amma dövlət başçısı xalqa yeni il müraciətində bildirdi ki, korrupsiyaya qarşı amansız mübarizə aparılır.*

- Amansız mübarizə hələ ki, hiss olunmur. Onun amansız olması da ola bilsin 2012-ci ildə başlansın. Və kim bu prosesi başlasa, biz onun tərəfindəyik.

**Müsahibənin davamını AzadliqRadiosu.az-da oxuya və ya dinləyə bilərsiniz.**

***İlqar Rəsul***

# Azərbaycan 2020-ci ildə necə olmalıdır?


Mehman Əliyev

**«2020-ci il konsepsiyası» çoxdan hazır olmalı idi». «Turan» informasiya agentliyinin direktoru Mehman Əliyev«İşdən sonra» proqramında «Azərbaycan -2020: Gələcəyə baxış» İnkişaf Konsepsiyası haqqında danışarkən belə deyib. Onun fikrincə, konsepsiya özündə əsasən demokratikləşməni əks etdirməlidir: «Bir şey var-demokratiya. Demokratiya lokomotivdir. O özü hər şeyi yaradacaq. Hər şeyin təhlükəsizliyini və rifahını təmin edəcək. Bu hakimiyyət bunu yarada bilməyəcək. Bunun mahiyyəti başqadır. Bunların istəyi başqadır...».**

Mehman Əliyev Azərbaycanda bu cür konsepsiyaların həyata keçiriləcəyinə inanmır: «Bizdə hakimiyyətin siyasəti ona yönəlib ki, insanların haqlarını pozsunlar, onları təkləsinlər, təqib etsinlər. Hər şey bunun üstündə qurulub, belə də gedəcək. O vaxta qədər ki, harasa dirənəcək...».

Mehman Əliyev deyir ki, bu konsepsiya qarşılıqlı razılaşma və dialoq əsasında hazırlanmalıdır: «Böyük bir dialoqa ehtiyac var cəmiyyətlə hakimiyyət arasında. Problemlər o dialoqda müəyyənləşməlidir. Hansı səhvlərə yol vermişik? Bataqlıqdan çıxmaq üçün hansı yolu seçməliyik? Biz hazırda qüvvədə olan platformanın üstündə durub yeni nəsə qurmaq istəyiriksə, bu, mənasız işdir...».

**KÖHNƏ MODELLƏRLƏ YENİ STRATEGİYA...**

*Filosof Əli Abbasov* isə deyir ki, konsepsiya dünyada baş verən prosesləri və yenilikləri də özündə əks etdirməlidir: «Köhnə modellərlə yeni strategiya işlənəcəksə, onda heç nə alınmayacaq. Yox, dünyada gedən prosesləri də nəzərə alsalar, deməli, başqa bir konsepsiya yarana bilər».

Əli Abbasovun fikrincə, konsepsiya ilkin olaraq ictimaiyyətin müzakirəsinə verilməlidir. Konsepsiyada nəzərdə tutulan müddəalar isə kağız üzərində qalmamalı, həyata keçirilməlidir: «Problem təklifdə deyil, onun realizə məsələsindədir. Azərbaycan üçün Azərbaycan modeli var. İqtidar tərəfindən cəmiyyətə hansısa bir sosial-mədəni konsepsiya təqdim olunmalıdır. Elə təqdim olunmalıdır ki, cəmiyyət bunu qəbul etsin. Belə bir model olsa, islahatlar da gedə bilər. Belə bir konsepsiya olmasa, hər şey necə var, elə də qalacaq...».

**Verilişi tam olaraq AzadliqRadiosu.az saytında dinləyin.**

***Xədicə İsmayılova, Kamran Mahmudov***

# Azərbaycan Bosniyada körpü tikintisinə 500 min dollar ayırıb

Azərbaycan hökuməti Bosniya və Hersoqovinanın Sarayevo şəhərində Dobrinya çayı üzərində «Dostluq Körpüsü»nün inşası üçün Azərbaycanın Xarici İşlər Nazirliyinə 408564 avro ayırıb. Nazirlər Kabineti bu barədə müvafiq sərəncam verib. Bu vəsait 2011-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Ehtiyat Fondundan ayrılıb.





**Dəyərli oxucular!**

AzadlıqRadiosunun korrupsiya halları ilə bağlı maraqlı araşdırmalarını, xəbər və reportajlarını **AzadliqRadiosu.az** saytında **"Korrupsiometr"** bölümündə oxuyun. Səs yazılarını dinləyin, videolara baxın.


# İctimai Palatanın yeni rəhbərliyi seçildi

*İctimai Palata 2012-ci ildə ilk sessiyasını keçirib. Yanvarın 8-də Müsavat Partiyasının qərargahında toplaşan İctimai Palata üzvləri Koordinasiya Şurasının aşağıdakı şəxslərdən ibarət olan yeni tərkibini seçib.*

1. Aqil Səmədbəyli - Bütöv Azərbaycan Birliyinin Mərkəzi Şurasının sədri
2. Ədalət Yusubov - Klassik Xalq Cəbhəsi Partiyasının sədr müavini
3. Əli Kərimli - Azərbaycan Xalq Cəbhəsi Partiyasının sədri
4. İbrahim İbrahimli - müstəqil siyasətçi
5. Hacı İlqar İbrahimoğlu - DEVAMM-in sədri
6. İsa Qəmbər - Müsavat Partiyasının başqanı
7. Köçəri Nağıbəyli - Qərbi Azərbaycan Azadlıq Təşkilatının sədri
8. Qələndər Muxtarlı - Azərbaycan Millətçi Demokrat Partiyasının sədri
9. Leyla Əliyeva - müstəqil politoloq
10. Rahim Hacıyev - "Azadlıq" qəzeti baş redaktorunun birinci müavini
11. Mehriban Vəzir - yazıçı-publisist
12. Mirvari Qəhrəmanlı - hüquq müdafiəçisi
13. Pənah Hüseyn - keçmiş Baş nazir
14. Rafiq Manaflı - Vətəndaş Həmrəyliyi Partiyası Ali Məclisinin sədri
15. Rauf Arifoğlu - "Yeni Müsavat" qəzetinin baş redaktoru
16. Vidadi Mirkamal - ədliyyə generalı
17. Zəfər Quliyev - müstəqil politoloq, analitik

## AzadliqRadiosu.az saytında maraqlı videolar




**Türkmənistan prezidentinin analoqu olmayan idarəçiliyi**

Türkmənistan prezidenti Gurbanguly Berdymukhammedov bu yaxınlarda məmurlarını başına yığıb onların üstünə qışqırıb, aşağılayan ifadələr işlədib.

# Şahdağ Turizm Kompleksində torpaq narazılığı

## "Bir qəzet 30 qəpiyədir, mənimsə torpağımın kvadratına 24 qəpik ödəyirlər"



**Prezident İlham Əliyev Şahdağ Qış-Yay Turizm Kompleksinin inşası ilə tanış olur, 27 fevral 2011**

### KUZUN KƏNDİNDƏ TURİZM KOMPLEKSİ

*«Burada ən yüksək xidmət təşkil olunacaq. Müasir otellər tikilir. Ümid edirəm ki, yaxın zamanlarda burada birinci mərhələni əhatə edən işlər başa çatacaq. Bu ilin sonuna qədər bu gözəl kurort öz qapılarını insanlara açacaq».* Bunu prezident İlham Əliyev ötən il fevralın 27-də Qusarda inşa olunan Şahdağ Qış-Yay Turizm Kompleksinin kanat və xizək enişinin açılışında deyib. Kompleksin təməlqoyma mərasimi isə 2009-cu ilin sentyabrında olub, turizm sahəsində ən iri layihələrdən hesab olunur. Kompleks 2045 hektardan artıq sahəni əhatə edir. Tikintisinin 4 mərhələdə, 8-10 ilə başa çatdırılması planlaşdırılır. İnşaat işlərini yerli və xarici şirkətlər həyata keçirir. Kompleksin inşasına qoyulan investisiyanın həcmi 2 mlrd. avro təşkil edir. Azərbaycan dövləti 400 mln. avro ayırır, qalan vəsaiti özəl investorlar yatırmalıdırlar.

Kompleksin bir hissəsi Kuzun kəndinin ərazisinə düşür. Kənd sakini Mirzəbəy Mirzəyev deyir ki, üzərində turizm kompleksi tikilən torpaqların 4.5 hektarı ona düşən pay torpağıdır. Hökumət bu torpağın hər sotuna görə kompensasiya kimi ona 24 manat təklif edib. O isə razılaşmayıb. Deyir, prezidentə məktublar da yazıb, cavab almayıb. Dərdini hər dəfə kompleksdəki tikinti işləri ilə tanış olmaq üçün əraziyə gələn prezidentə əyani demək istəyir, ancaq buna da imkan vermirlər.

### «ORADA TORPAĞIN SOTU 1000 MANATDIR»

Mirzəbəy Mirzəyev: «Həmin sahədə torpağın sotu ən aşağısı 1000 manatdır. Mənə isə 1 sotuna 24 manat verirlər. Bir qəzet 30 qəpiyədir, mənimsə torpağımın kvadratına 24 qəpik verirlər. Torpağı götürüb tikirlər, deyirlər «bu qədər pul veririk. Götürürsən götür, götürmürsən götürmə».

*Kəndin digər sakini Şamil Bağışov da kompleksin ərazisinə düşmüş 4 hektar pay torpağına təklif olunan kompensasiyadan imtina edib:*

«Sotu 24 manatdan hesabladılar. Bu pul uyğun deyil axı. Xizəksürmə əraziləri örüş əraziləri idi. Hazırda otellər tikilən ərazilər isə pay torpaqlarıdır. Şəxsən mənim pay torpağımda indi 3 beşmərtəbəli yataqxana tikilir».

Şamil Bağışov deyir ki, Nazirlər Kabinetinə və prezidentə şikayətlər yazıb. Həmin şikayət məktubları Qusar Rayon İcra Hakimiyyətinə göndərilib. Nəticəsi də bu olub ki, onu icra hakimiyyətinə çağıraraq dövlətin ayırdığı kompensasiyanın bundan artıq olmadığını deyiblər. Qusar Rayon İcra Hakimiyyətindən AzadlıqRadiosuna bildirdilər ki, tikilən turizm kompleksinin onlara heç bir aidiyyəti yoxdur. Tikintini Mədəniyyət və Turizm Nazirliyi aparır.

### DÖVLƏT QURUMLARI RƏQƏM AÇIQLAMIR

*Kuzun kəndinin narazı sakinlərinin vəkili Anar Qasımlı deyir ki, rəsmi qurumlara Kompleksin tikintisinin düşdüyü torpaq üçün nə qədər kompensasiya ödənməsi barədə sorğular göndərib. Qurumlar vəkilə rəqəm açıqlamayıblar, ümumi cavablar verməklə kifayətləniblər:* «Əsas bizim öyrənmək istədiyimiz odur ki, dövlət həmin torpaqların hər sotuna nə qədər pul ayırıb. Bunu biləndən sonra adamlar ödənilən



**Anar Qasımlı**

məbləğlə razılaşmasalar, məsələni məhkəmələrdə həll etməli olacaqlar».

### BU, KOMMERSİYA LAYİHƏSİDİR

*Hüquq Maarifçiliyi Cəmiyyətinin rəhbəri İntiqam Əliyev* mülkiyyətçilərə kompensasiya ödənilmədən torpaqlarda tikinti aparılmasını adamların mülkiyyət hüquqlarının pozulması kimi qiymətləndirir. O deyir ki, qanunvericiliyə əsasən, istənilən turizm obyektinin tikintisi dövlət ehtiyacları kateqoriyasına aid edilmir. Bu, kommersiya xarakterli bir proyektdir. Vətəndaşların mülkləri, torpaqları üç halda özgəninkiləşdirilə bilər: hərbi sənaye obyektlərinin, sərhəd zolaqlarının və dövlət yollarının tikintisi zamanı. Bu hallarda dövlət vətəndaşdan məcburi qaydada, lakin mülkün qiyməti razılaşdırılmaq şərti ilə onların mülklərini ala bilər:

«Sotuna 24 manat ödənilməsi biabırçı faktdır. Sotu 24 manata hətta dağlıq yerlərdə də torpaq yoxdur. Bu, dövlətin vətəndaşa qarşı münasibətində özbaşınalığıdır. Qiymət birtərəfli qaydada «sotuna 24 manat verirəm» formasında deyil, bazar qiymətləri nəzərə alınmaqla müəyyənləşdirilməlidir. Tərəflərdən biri razı deyilsə, məhkəməyə müraciət etməlidir. Bütün bunlar başa çatmamış o ərazilərdə tikintinin başlanması, ora prezidentin gəlməsi dövlətin vətəndaşa hörmətsiz yanaşmasıdır».

***Esmira Cavadova***

**"Qaynar Xətt"** dinləyici şikayətləri əsasında hazırlanan verilişdir. Sizin də şikayətiniz və ya məlumatınız varsa, qaynar xəttə zəng edin. **Telefon 436 77 41.** Bizə zəng edənlər mütləq koordinatlarını (ad, familiyasını və telefonunu) saxlamalıdır. **AzadliqRadiosu.az** saytına daxil olmaqla da verilişlə əlaqə saxlaya bilərsiniz.

Aparıcı Esmira Cavadova.

E-mail: esmer_alda@mail.ru



# R.Quliyev: "Hökumətə təkliflər vermişəm..."



**Parlamentin keçmiş spikeri Rəsul Quliyev yeni il ərəfəsində yenilik.az saytına müsahibə verib. O, həmçinin yeni il münasibətilə videomüraciət yayıb. Son aylar Diktaturaya Qarşı Müqavimət Hərəkatı yaratdığını elan edib, fəal siyasi bəyanatlar verən parlamentin keçmiş sədri bu müsahibəsində də aktual siyasi məsələlərə münasibətini ifadə edir. Həmin müsahibəni təqdim edirik.**

**- Yeni ildə sizcə, dünya siyasətində nə yeniliklər baş verə bilər?**

- Birincisi mühüm hadisə ABŞ-da prezident seçkiləri olacaq. Bu seçkilərdən sonra dünya siyasətində bir çox strateji məsələlərə yenidən baxılacaq. Amerika hələ ki, super dövlət statusunu saxlamaq qüdrətinə malikdir. Ancaq Çinin nəfəsi artıq il-ildən arxadan amerikanı daha güclü yandırır. Bir neçə il bundan öncə milli gəlirinə görə 7-ci yerdə olan Çin bu gün 2-ci yerdədir. Çin yeganə ölkədir ki, hərbi texnikasına görə Amerikaya yaxınlaşıb. Çinin artan təsir dairəsinin qarşısını almaq üçün Amerika Yaxın Şərqdə, RF-də və Şimali Koreyada demokratik dəyişikliklərə nail olmalıdır. ABŞ dilemma qarşısındadır. O məqsədyönlü siyasət aparsa yenidən neftin bir barelinin qiymətini 20 dollar səviyyəsinə endirə bilər. Bu halda Rusiya yenidən ya dağılmalıdır, ya da demokratiyanın 2-ci mərhələsinə başlamalıdır. Sözsüz ki, neftin qiymətinin aşağı düşməsi İranı da laxladacaq. Mən Azərbaycan və Qazaxıstanı yazmıram, çünki bunlar fundamenti olmayan ölkələrdir, oradakı rejimlər avtomatik çökəcək.

Necə "polkovnik" Hüseynov 1993-cü ildə çevriliş etmişdi, indi hətta serjant bu işi görə bilər, sözsüz biz imkan versək. Ancaq Amerikanın bu siyasətin çox mühüm çatışmayan cəhəti var. Bu gün Çin enerji resursları import edir və milyardlar xərcləyir. Neftin qiymətinin aşağı düşməsi Çinin finans resurslarını azı 20 faiz qaldırır. Ona görə də ABŞ-ın strateji beyinləri yeni strateji proqram üzərində baş sındırırlar. Dünyanın bu sahədə toplanmış beyinlərinin 70 faizinin Amerikada olduğunu nəzərə alsaq, bu, çox masştablı plan olacaq. Hər halda bu planın tərkib hissəsində yeni demokratik ölkələrin yaradılması xüsusi yer tutacaq. Həmin ölkələrin içərisində bizim balaca Azərbaycanın olmasına da şübhəniz olmasın.

**- Hakimiyyətə iddialı olduğunuzu artıq bəyan etmisiz. Sizcə, ölkədə maaşlar nə qədər olmalıdır, ziyalıların, yaradıcı insanların mənzil şəraitini, mətbuatın vəziyyətini necə düzəltmək olar?**

- Ölkədə maaşların miqdarını pul vahidi ilə ifadə etməyin mənası yoxdur. Mən onun strukturasını izah edim. Kreditlə ev almısansa və ya kirayə götürmüsənsə aldığın maaşın 30 faizi buna, 25 faizi yeməyə, 10 faizi pal-paltar, 15 faizi maşın və ya başqa bahalı şeylər almaq istəyirsənsə yığılmalı və ya kreditlə almısansa onu ödəməyə, 10 faizi qara gün, ağ gün üçün toplanmalıdır .Yerdə qalan 10 faiz də gözləmədiyin xərclər ola bilər. Müxtəlif ölkələrdə bu rəqəm, məsələn, ayda 1200 dollardan 3000 dollara qədər ola bilər. Bu rəqəm asılıdır ölkə sosial proqramlarını necə həll edir. Müxtəlif yaş qruplarına, müharibə veteranlarına və sair və sair sosial təminatlar hansı səviyyədir. Məsələn, səhiyyə, təhsil sözün əsl mənasında pulsuzdur, ya yox.

Mən özüm üçün Azərbaycanda hansı sistemin olacağını müəyyənləşdirmişəm. O dediyim struktur hamı üçün eyni səviyyədə işləyəcək. Adını çəkdiyiniz intellektual qrupların daha çox qazanmaq şansları olacaq. Əksinə, sivil ölkələrdə olduğu kimi onlar kasıblara, xəstələrə kömək üçün öz pullarından ayıracaqlar.

**- Yaltaqlana bilməyən, tapşıranı, pulu olmayanlar həmişə mənzilsiz yaşamalıdırlar, yoxsa bunun bir çıxış yolu olmalıdır? Dünyada müxalifətin öz təkliflərini vermək ənənəsi də var, bu baxımdan bəlkə hökumətə məsləhətlərinizi verəsiz?**

- Birinci başlayaq pulun olub olmamasından, çünki bu, əsas faktordur. İnsanların pulları onların azadlığını təmin edən səviyyədə olmalıdır. Pul fərdin başqasından asılı olmamağına təminat verir. Ona görə ilk növbədə insanlara öz fiziki və intellektual resurslarını maddiləşdirməyə şəraitin yaradılması zəruridir. Bu şərait hamı üçün eyni olmalıdır. Sözdə yox. Öz imkanlarını maddiləşdirən insanlar ümumi əhalinin 95 faizini təşkil edəcəkdir. İstənilən cəmiyyətdə ancaq beş faiz şikəst , əlil, bacarıqsız adam ola bilər, onlar da dövlətdən maliyyələşdirilməlidir. 95 faizin imkanları çərçivəsində milyonerlər, orta sinif və çinovnikləri olacaq, onlar praktiki heç kimdən yox, ancaq özündən asılı olacaq. Bu insanlara yaltaqlanmaq lazım deyildir və onların mənzilinin olmaması mümkün deyildir. Müxalifətin səsi, sayından asılı olmayaraq, həmişə eşidilməlidir, kar olmamaq üçün vətəndaş cəmiyyəti yaradılmalıdır. Hökumətə təklifləri vermişəm, xeyri yoxdur.

**Müsahibənin tam mətnini AzadliqRadiosu.az saytında oxumaq olar.**




Azərbaycanın bölgələrində baş verənlər haqda həftəlik proqram. **AzadlıqRadiosu** bölgə müxbirlərinin hazırladığı reportajlarda əyalətlərin nəbzini hiss etmək üçün hər həftənin bazar ertəsi, **saat 20.35**-də efirə qoşulun. Verilişin təkrarı həftəboyu **AzadlıqRadiosu**nun efirində səslənir.

# Böyük Xalq Hərəkatını kim yaradır?



Elnur Məcidli

**«Biz 2012-ci ildə böyük dəyişikliklər gözləyirik. Bu il siyasi prosesləri dəyişmək baxımından uğurlu il ola bilər». Bunu Elnur Məcidli deyir. Böyük Xalq Hərəkatının yaradıcılarından biri. Böyük Xalq Hərəkatı hakimiyyətdən narazı gənclərin sosial şəbəkələrdə yaratdığı etiraz kampaniyasıdır. Hərəkatın İdarə Heyətində ABŞ-da, Avropada yaşayan fəallar təmsil olunub. Hərəkatın «Facebook» sosial şəbəkəsindəki səhifəsində 1000 nəfər qeydiyyatdan keçib, 40 min nəfər isə onun materiallarını paylaşıb. Bunu da Elnur Məcidli deyir.**

Amma səhifədə bu rəqəmləri, üstəlik də moderatorların və qeydiyyatdan keçənlərin kimliyini görmək olmur. Elnur Məcidli bunu həbslərdən və təzyiqlərdən qaçmaq üçün etdiklərini deyir. Hərəkatçılar Bakıda etiraz aksiyaları da planlaşdırırlar və bu yöndə siyasi partiyalarla danışıqlara başlayıblar: «Aksiyalarla bağlı müzakirələr gedir. Bu prosesdə biz siyasi partiyalarla, gənclər və başqa təşkilatlarla danışıqlara başlamışıq. Bu danışıqlarda aksiyaların forması, təbliğatın hansı yöndə aparılması ilə bağlı ortaq qərar veriləcək. Düşünürəm ki, 2012-ci il Azərbaycanda siyasi prosesləri dəyişmək, qanunu bərpa etmək üçün uğurlu bir il ola bilər. Sadəcə, dünyada yaranmış situasiyadan Azərbaycan xalqının lehinə lazımınca istifadə etmək lazımdır».

**İSA QƏMBƏR: «PROSES GƏNCLƏRİN İDARƏÇİLİYİ İLƏ DAVAM EDİR»**

*Müsavat başqanı İsa Qəmbər gənclərin təşəbbüsünü yüksək qiymətləndirir. O, etiraz aksiyaları ilə bağlı məsləhətləşmələrin keçirildiyini də təsdiqləyir:* «Hələlik bu, gənclərin müstəqil qəbul etdiyi qərardır. Onların idarəçiliyi ilə davam edir. Sonrakı mərhələdə situasiya bir daha dəyərləndiriləcək».

**ZƏRDÜŞT ƏLİZADƏ: «HEÇ NƏDƏNSƏ, FƏAL OLMAQ YAXŞIDIR, AMMA...»**

*Politoloq Zərdüşt Əlizadə isə hesab edir ki, gənclər hər hansı hərəkat yaratmazdan öncə ciddi hazırlaşmalıdırlar:* «Gənclərin vətənpərvərliyindən, azadlıqsevərliyindən istifadə edib verirlər qabağa, özləri otururlar evdə. Sonra da deyirlər ki, rədd olsun diktator rejimi. Əvəzində nə olacaq? Heç nədənsə fəal olmaq yaxşıdır. Amma istərdim həm fəal olsunlar, həm də ağıllı. Bu xalqı 80 dəfə məğlubiyyətə aparmış adamların dalınca getməyin mənası yoxdur».

**«GƏNCLƏRDƏN QURBANLIQ KİMİ İSTİFADƏ EDİRLƏR»**

*Bu cür hərəkata və ya etiraz aksiyalarına qətiyyən ehtiyac yoxdur. Bunu da Ana Vətən Partiyasının sədri, deputat Fəzail Ağamalı deyir:* «Bu cür aksiyalar Azərbaycanı istəməyən qüvvələr tərəfindən gündəmə gətirilir. Azərbaycanı sevməyən, uğurlarına qısqanclıqla yanaşanlar gənclərdən qurbanlıq kimi istifadə edirlər. Meydanlara toplaşaraq vətəndaş qarşıdurmasına getmək milli maraqlara ziddir. Gənclər, əlbəttə ki, bundan çəkinməlidirlər».



Fəzail Ağamalı

Fəzail Ağamalı yeni kampaniyanın da 11 Mart - Böyük Xalq Günü kimi iflasa uğrayacağı qənaətindədir. Elnur Məcidli isə bu cür yanaşma ilə razı deyil. Onun dediyinə görə, ötənilki 11 Mart - Böyük Xalq Günü Azərbaycanda buzu sındırdı. Aksiya alınmasa da, ötən ilin yazında etiraz aksiyaları gücləndi, ziyalılar fəallaşdı.

***Şahnaz Bəylərqızı***

# Spasibo Zeynalabdin

**"CAN BAKI"dan GÜNÜN GÜLMƏCƏSİ**

*(Manaf Süleymanovun ruhuna sayğılarla)*

Bu lətifəyə bənzəyən əhvalat 100-110 il öncə neft Bakısında baş verib. O zamanlar adamlara ləqəb qoymaq adət imiş. Bakıda Zeynalabdin deyilən bir kişi varmış. Ləqəbi yoxmuş. İçərişəhərli Zeynalabdin çar hökumətinin ona-buna medal verdiyini görüb padşaha bir şey bağışlayıb medal almaq xəyalına düşür. Gəlir Bakı qubernatorunun yanına. Deyir, İçərişəhərdəki karvansaramı padşahın uşaqlarına bağışlayıram. Qubernator qayıdır ki, padşahın uşaqları nə günə qalıb ki, sənin xaraba karvansarana göz diksin?

Zeynalabdin deyir ki, mən padşahın uşaqları deyəndə, soldatları nəzərdə tuturdum. Elə onlar da padşahın balalarıdır da...

Qubernator Zeynalabdinin xahişini göndərir Peterburqa - padşaha. Zeynalabdin də hər gün qubernatorluğa gəlib padşahdan cavab gözləyir. Günlərin birində qubernator Zeynalabdinə deyir ki, artıq əlahəzrətdən cavab gəlib. Get karvansaranı boşalt, təmizlə, bir-iki günə soldatları ora köçürəcəyik. Zeynalabdin sevincək soruşur ki, bəs əlahəzrət mənə nə lütf edib?

Qubernator kağıza baxıb deyir: "Sənə də spasibo yazıbdır". O vaxtdan İçərişəhərdə kişini "Spasibo Zeynalabdin" çağırırlar...




Sevda İsmayıllı hər həftənin çərşənbə günü, günorta **saat 12-də** efirə bir sualla başlayır: **"Bir "Can Bakı" deyərsizmi?"**... Bakının ictimai və mədəni yaşamı, düşüncə və əyləncə həyatı haqda, maraqlı şəxslərin iştirakı ilə keçirilən bu proqramın təkrarları da həftə boyu AzadlıqRadiosunun efirində səslənir. **"Can Bakı"nı AzadliqRadiosu.az** saytında da dinləyə və oxuya bilərsiz.

# Обращение в международные организации о Рафике Таги



Рафиг Таги

**Группа интеллигенции обратилась 2 января к международным организациям в связи с убийством 61-летнего писателя Рафика Таги. Обращение, адресованное в Совет Европы, ООН, международные правозащитные организации продписали 54 человека из Азербайджана и Германии. Авторы обращения считают одного из иранских аятолл виновным в смерти Рафика Таги, которая наступила 19 ноября 2011 года после нанесения ему ножевых ранений несколькими днями ранее. В обращении отмечается, что сразу после смерти писателя сын этого аятоллы приветствовал убийцу.**

«Это насмешка над скорбящими о Рафике Таги единомышленниками! Это попытка унизить наше молодое и светское государство!» - написано в обращении. В документе также отмечается рост и расширение опасности для авторов, которые пропагандируют европейские ценности, и одного из которых заставили замолчать, убив его. Авторы призывают к протесту против этой тендеции и пишут, что нельзя допустить "превращения Азербайджана в Иран".

Документ подписали ученые, преподаватели и журналисты Фирудин Джалилов, Рахман Бадалов, Али Аббасов, Агалар Мамедов, Зейнал Мамедли, писатель и депутат Агиль Аббас, живущие в Германии активисты Фахреддин Гаджибейли, Исхак Озаноглу и другие.

Один из подписавших апелляцию, журналист Зейнал Мамедли сказалРадиоАзадлыг, что они обратились с таким заявление для того, чтобы свободно и инакомыслящих людей не постигла такая судьба:

- Обращение по поводу Рафика Таги не цель, а средство для того, чтобы желающие говорить о своем мнении так же свободно, как он, не умирали так. Мы подаем сигнал тревоги.

Рафик Таги получил несколько 6 ножевых ранений 19 ноября в Баку и скончался в больнице несколько дней спустя.

В 2007 году суд в Баку приговорил Рафика Таги к трем годам тюрьмы в связи со статьёй «Европа и мы» в газете «Санат», в которой усмотрели оскорбление ислама и пророка Мухаммеда. В том же году журналист был помилован указом президента. Один из иранских аятолл вынес фетву о смерти Рафика Таги из-за этой же статьи. Правоохранительные органы пока не обнародовали какую-либо версию убийства. В Генеральной прокуратуре страны заявили, что "ведется следствие и предпринимаются все необходимые меры по поимке преступника".

***Саадат Акифгызы***

# Следующий ход

*ВМексике с участием тамошнего президента Кальдерона прошла церемония открытия самого высокого моста в мире. Под ним даже Эйфелева башня поместится. Еще недавно Азербайджан гордился самым высоким флагом – на самом высоком флагштоке в мире, а Таджикистан - возьми да переплюнь его. Теперь самый высокий флаг в мире развевается в Душанбе... Отнял Имамали Рахмон у самой авторитетной страны Южного Кавказа, где любят говорить о «не имеющем аналогов» развитии, то, чем мы превосходили всех. Можно сказать, единственный, ничем незапятнанный источник гордости.*

В подавляющем большинстве богатых природными ресурсами странах, где не бывает демократичных выборов, и президенты не сменяются десятилетиями, принято делать такие вещи, вешать лапшу и пудрить мозги своему полуголодному населению.

В Туркменистане, например, были гигантские вращающиеся статуи президента Туркменбаши. И где они теперь? А Таджикистан даже богатым не назовешь. Правда, в Мексике построили самый высокий мост, и они тоже не особо богаты. Но может, в том мосту даже необходимость была? Кто знает? Это не сообщается.



Вид снизу на самый высокий мост в мире, Мексика, 5 января 2012

Интересно, что предпримет после этого Азербайджан?

***Чингиз Султансой***

# Иранский аятолла назвал грехом регистрацию в Facebook

Высокопоставленный иранский аятолла назвал грехом пользование социальной сетью Facebook. "По сути, посещение любого веб-сайта, который пропагандирует аморальное поведение и подрывает веру, противоречит нормам ислама, поэтому участие в подобных сообществах уже само по себе является грехом".

Это сказал аятолла Лютфулла Сафи-Голпагайни, слова которого приводит информационное агентство ISHA. По официальным данным, обнародованным в октябре, аккаунты в Facebook имеют 17 миллионов иранцев. При этом в стране действуют жесткие ограничения на пользование социальными сетями, блокирован доступ примерно к пяти миллионам интернет -сайтов.

**На сайте РадиоАзадлыг - radioazadlyg.org:**

- Джамиль Гасанли: "Взятки перечисляются на банковские счета"
- Нужна ли Турции Европа?
- Почему (не) опасен Иран?
- В Сенате Франции ожидается голосование по вопросу "геноцида"
- Коррупционные факты в системе Минтруда

# Zeynal Bağırzadəyə işgəncə verilibmi?


Elçin Behbudov

**Dekabrın 29-da bir neçə müxalifət fəalının Naxçıvan Muxtar Respublikasının Bakıdakı nümayəndəliyi qarşısında aksiya keçirməyə cəhd etmələri deyəsən onlara baha başa gəlir. Aksiyada AXCP fəalı Zeynal Bağırzadənin həbsinə və təcridxanada ona işgəncə verilməsinə etiraz edirdilər. Aksiya iştirakçısı Sahib Hüseynov bildirir ki, dekabrın 29-dan sonra Naxçıvan şəhərində və yaşadığı Nehrəm kəndində naməlum şəxslər onu izləyib. O deyir ki, özünə qarşı təhlükə hiss etdiyindən yaxınlarının məsləhəti ilə yanvarın 4-də Naxçıvandan Bakıya gəlib.**

Zeynal Bağırzadənin qardaşı AXCP Naxçıvan şöbəsinin sədr əvəzi Yaşar Bağırsoy isə deyir ki, aksiyanı keçirməkdə məqsədləri həm də Naxçıvanda insan haqları ilə bağlı baş verənləri mərkəzi hakimiyyətin diqqətinə çatdırmaq olub.

Yaşar Bağırsoy təcridxanada qardaşına işgəncə verilməsi haqda mətbuata verdiyi açıqlamalara aydınlıq gətirib: «Mən və qardaşım Zeynal Bağırzadə hələ 2001-ci ilin iyun ayında həbs olunanda, polisdə bizə 3 saat işgəncə veriblər. Bizi «tok»a verməkdən belə çəkinməyiblər. Zeynal məhkəmədən sonra sağ-salamat təcridxanaya göndərilib. İki gün sonra isə onu diaqnostika mərkəzinə aparıblar».

Aksiyadan sonra Naxçıvan Muxtar Respublikası Prokurorluğu Zeynal Bağırzadə haqqında açıqlama yayıb. Prokurorluq Zeynal Bağırzadənin istintaq təcridxanasında təzyiqə məruz qalması və səhhətinin ağırlaşması barədə yayılan məlumatları təkzib edib. Açıqlamada həmçinin deyilir ki, Zeynal Bağırzadənin həbsinin siyasi xarakterli olması haqda deyilənlər həqiqətə uyğun deyil.

**«YAXINLARINA ZEYNAL BAĞIRZADƏ İLƏ GÖRÜŞMƏYƏ İMKAN VERİLMƏYİB»**

Yaşar Bağırsoy isə Prokurorluğun açıqlamasını Naxçıvan hakimiyyətinin baş verənlərə don geyindirməsi kimi dəyərləndirir: « Həqiqətən də Zeynala işgəncə verilməyibsə, yaxınlarına onunla görüşməyə imkan versinlər. Bu günə qədər də ailə üzvlərinə onunla görüşməyə imkan verməyiblər. İşgəncə olmayıbsa, imkan versinlər görüşək, görək ki, doğrudan da işgəncə verməyiblər».

*İşgəncələrə Qarşı Azərbaycan Komitəsinin sədri Elçin Behbudov* AzadlıqRadiosuna bildirib ki, komitənin Naxçıvan nümayəndəsi həbsdə olan Zeynal Bağırzadə ilə görüşüb. Elçin Behbudov deyir ki, Zeynal Bağırzadə təcridxanada hər hansı formada işgəncələrə məruz qalmadığını deyib:

**«XAHİŞ EDİB Kİ, ONUN QARDAŞINA ÇATDIRAQ Kİ...»**

«Zeynal Bağırzadə bizim əməkdaşlara bildirib ki, o, qeyri-insani rəftara məruz qalmayıb. Onu incitməyiblər, döyməyiblər. Xahiş edib ki, onun qardaşına bu barədə çatdıraq. Zeynal Bağırzadə yalnız onun barəsində qaldırılmış ittihamları əsassız hesab etdiyini deyib».


Məlahət Nəsibova

**«NİYƏ BİZ GÖRÜŞƏ BİLMİRİK?»**

*Naxçıvandakı hüquq müdafiəçilərindən Məlahət Nəsibova* isə deyir ki, onlar Zeynal Bağırzadə ilə görüşmək üçün dəfələrlə aidiyyəti qurumlara müraciət ediblər: «Naxçıvanda çox az QHT var. Amma Zeynal Bağırzadə ilə görüşənləri nə biz - hüquq müdafiəçiləri, nə də Zeynal Bağırzadənin yaxınları tanıyır. Biz əvvəldən proseslərin içindəyik, dəfələrlə görüş üçün müraciət etsək də, heç bir nəticə olmayıb. Amma bu prosesləri izləməyən, yaxınlarının tanımadıqları adamlara icazə verilir».

***Yafəz Əkrəmoğlu,***
***Nüşabə Fətullayeva***

# Avropa Məhkəməsi 2005-ci il seçkiləri ilə bağlı daha bir qərar verdi

Avropa İnsan Haqları Məhkəməsi 2005-ci ildə deputatlığa namizəd olmuş 4 nəfərin iddiası ilə bağlı qərar verib. Bunlar AXCP sədri Əli Kərimli, ADP sədri Sərdar Cəlaloğlu, Müsavat İcra Aparatının rəhbəri Arif Hacılı və «Aydınlar» Partiyasının sədri Qulamhüseyn Əlibəylidir.

Yanvarın 6-da verilən bu qərarın rəsmən yanvarın 10-da elan ediləcəyi deyilir. Keçmiş namizədlər iddialarında bildiriblər ki, 2005-ci il seçkilərində deputat seçilsələr də, bu haqları tanınmayıb. Arif Hacılı və Sərdar Cəlaloğlunun mandatını Mərkəzi Seçki Komissiyası, Əli Kərimli ilə Qulamhüseyn Əlibəylinin mandatını isə Konstitusiya Məhkəməsi ləğv edib.

Vəkil Əshabəli Mustafayevin fikrincə, məhkəmənin qərarı onun eyni seçkilərlə əlaqədar Flora Kərimova barəsində verdiyi qərarla oxşar olacaq. Avropa Məhkəməsi xalq artisti Flora Kərimovanın 2005-ci ildə deputat seçilməsini təsdiqləyib. Azərbaycan dövləti ona 60 min avro təzminat ödəyib.

***Maarif Çingizoğlu***




Ən aktual, ən qaynar müzakirələr həftənin hər iş günü AzadlıqRadiosunun efirində. **Saat 17-dən 19-dək**. **AzadliqRadiosu.az** saytından verilişə qulaq asa və ya baxa bilərsiniz. Geciksəniz, AzadliqRadiosu.az saytında səs arxivindən verilişlərə sonradan da qulaq asa bilərsiniz.

Veriliş zamanı suallarınızı verin:
SMS: (+994 50 744 10 17)
Telefon: 436 – 77 - 41
Elektron ünvan:
efir@azadliqradiosu.az

# Baba Rzayevin ailə biznesi

**Uzaq ölkələrdən Azərbaycana qonaq gətirən təyyarələrin yolunu işıqlandıran projektorlardan tutmuş, Bakı sakinlərinin evində közərən lampalara qədər, ölkə paytaxtında yandırılan elektrik enerjisinin hər kilovatından qazanan bir ailə var. Dövlətin rəsmi sənədlərini saf-çürük edəndən sonra bu qənaətə gəlmək olur...**

### TANIŞ OLUN, RZAYEVLƏR AİLƏSİ

Bu ailənin üzvlərinə Azərbaycanda elektrik məhsullarının satışından tutmuş, elektrik təchizatı ilə bağlı dövlət sifarişlərinin icrasına qədər ciddi işlərlə məşğul olan bir neçə şirkətin təsis sənədlərində rast gəlirik.



Bakıda Böyük Şor şosesində işıqlı, çilçıraqlı binası ilə göz oxşayan "Santral Elektrik LTD" şirkətinin səhmlərinin rəsmi sənədlərə görə 70 faizi Baba Rzayevə, 30 faizi onun həyat yoldaşı Nərminə Həsənovaya məxsusdur *(Balababa Rzayev yerli mətbuata verdiyi müsahibələrində özünü Baba Rzayev kimi tanıdır deyə, biz də mətndə Baba Rzayev kimi qeyd edirik - müəlliflər).* "Santral Elektrik LTD" Ədliyyə Nazirliyində 2003-cü ildə qeydiyyata alınıb. O vaxt şirkətə Emin Rzayev – Baba Rzayevin qardaşı rəhbərlik edirdi.

İndi "Santral Elektrik"ə rəhbərlik səlahiyyəti İlham Həsənova – Baba Rzayevin qaynına verilib. Həm də təkcə "Santral Elektrik" deyil, əldə etdiyimiz sənədlərə görə, bu ailə Azərbaycanda elektrik məhsulları sahəsində əksər şirkətlərə himayədarlıq edir. Ailənin biznesi 2006-cı ildən sonra çiçəklənməyə başlayıb. Bu isə Baba Rzayev paytaxtın elektrik paylama şəbəkəsinə nəzarət edən dövlət qurumu olan "Bakıelektrikşəbəkə"nin sədri təyin olunan vaxta təsadüf edir. Məhz həmin dövrdə paytaxtın elektrik şəbəkəsi də özəl əllərdən – "Barmek" şirkətindən alınaraq, bərpa edilmiş dövlət qurumuna – "Bakıelektrikşəbəkə"yə keçib.

Satınalmalar Komitəsinin internet səhifəsində əksini tapmış tender siyahısından görürük ki, 2011-ci il ərzində bu şirkət müxtəlif dövlət qurumlarına elektrik avadanlığı satıb. Bu siyahı dövlət qurumlarının alqı-satqı müqavilələrinin heç də hamısını əks etdirmir.

| | | | | |
|---|---|---|---|---|
| **198** | Daxili İşlər Nazirliyinin Baş Mühafizə İdarəsi | Elektrik avadanlıqlarının satın alınması | "Santral Elektrik LTD" MMC | **7844,64** |
| **451** | Prezidentin İşlər İdarəsinin Pansionatı | Elektrik mallarının satın alınması | "Santral Elektrik LTD" MMC | **3608,98** |
| **491** | Əmlak Məsələləri Dövlət Komitəsi | Elektrik avadanlıqlarının, onların quraşdırılması və təmir işlərinin satın alınması | "Santral Elektrik LTD" MMC | **4748,9** |
| **1143** | "Təmiz Şəhər" ASC | Projektorlu generatorun satın alınması | "Santral Elektrik LTD" MMC | **11800** |
| **2452** | Hesablama Palatası | Lampaların və elektrik malların satın alınması | "Santral Elektrik LTD" MMC | **3449,14** |
| **3137** | Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi | Generatorların alınması və quraşdırılması işlərinin satın alınması | "Santral Elektrik LTD" MMC | **25134** |
| **3817** | Məcburi Köçkünlərin Sosial İnkişaf Fondu | Digər maşın və avadanlıqların satın alınması | "Santral Elektrik LTD" MMC | **11601,76** |
| **4659** | Daxili İşlər Nazirliyinin Baş Dövlət Yol Polisi İdarəsi | Elektrik mallarının satın alınması | "Santral Elektrik LTD" MMC | **16005,96** |
| **4854** | Mərkəzi Bank | Elektrik mallarının satın alınması | "Santral Elektrik LTD" MMC | **6127,65** |

### BABA RZAYEV HƏM DƏ MEHRİBAN ƏLİYEVANIN NÜMAYƏNDƏSİ İMİŞ...

Baba Rzayev və onun həyat yoldaşı Nərminə Həsənova iqtidarda olan Yeni Azərbaycan Partiyasının üzvləridir. Bundan başqa, 2005-ci ildə parlament seçkilərində Baba Rzayev namizəd Mehriban Əliyevanın Qala və Zirə kəndlərində təmsilçisi idi. «Bakıelektrikşəbəkə» ASC-nin sədri həm də "Eurovision-2012" müsabiqəsinin təşkilat komitəsinin üzvüdür.



Baba Rzayev

Baba Rzayev "Santral Elektrik"in əsasını 2000-ci ildə Türkiyədən olan tərəfdaşı ilə birlikdə qoyub. Sonralar, 2003-cü ildə türkiyəli iş adamı öz payını Baba Rzayevə satıb. "Bakelektrikşəbəkə"yə sədr keçdikdən sonra onun, "Santral Elektrik"i də qeyri-rəsmi idarə etdiyi bildirilir.

İxtisasca elektrik mühəndisi, ADNA məzunu olan Baba Rzayev "Bakelektrikşəbəkə"yə rəhbər göndərilməzdən əvvəl "Bakelektro" ASC-nin icraçı direktoru işləyib. Hazırda "Bakelektro"ya da onun qardaşı Emin Rzayev rəhbərlik edir.

"Santral Elektrik" Azərbaycanda elektrik avadanlığı, onların quraşdırılması və xidmət sahəsində iri özəl şirkət hesab edilir. İnternet səhifəsindəki məlumatlara görə, "Legrand" (Fransa), "Pirelly" "GEWISS", "KEMMR.I" (Finlandiya), "Vortice" (İtaliya), "Stanley" (ABŞ), Philips, Osram "Dewallt", "Massive" və başqa şirkətlərin Azərbaycanda rəsmi distribütoru da "Santral Elektrik"dir.

*(davamı səhifə 10-da)*

# Baba Rzayevin ailə biznesi

*(əvvəli səhifə 9-da)*

**QARANLIQDAN İŞIQ SAÇAN "BAKIELEKTRİKŞƏBƏKƏ"**

Satınalmalar Komitəsinin saytında əksini tapmasa da, "Santral Elektrik LTD"nin internet səhifəsində bir il bundan əvvələ qədər göstərilən reklam prospektlərində bu şirkətin həm də Bakı aeroportuna gedən yolun işıqlandırılması, Bakı Beynəlxalq Hava limanının və Bakı Beynəlxalq Avtovağzalının bütün xarici elektrik təchizatı, kabel, elektrik xətlərinin çəkilişi, Yeni Bakı Neftayırma Zavodu, Səngəçal Terminalı, Milli Olimpiya Komitəsi, LukOil şirkətinin baş ofisi, Azəri-Çıraq şirkəti, Dərin Özüllər Zavodu, Bakı Metropoliteninin də işıqlandırma məsələləri ilə məşğul olduğunu görə bilərdik.

Amma "Santral Elektrik LTD" Rzayevlərin "işıqlı biznesinin" ümmanında bir damladır. İşıqlı biznesin hərəkətverici qüvvəsi isə "Bakıelektrikşəbəkə" ASC-nin tenderləri və alqı-satqı müqavilələridir.

Baba Rzayevin rəhbərlik etdiyi "Bakelektrikşəbəkə"nin fəaliyyəti ekspertlər tərəfindən şəffaf dəyərləndirilmir. Qurumun keçirdiyi tenderlər şəffaf deyil. İnternet saytlarında tender elanlarını görmək olar, amma nəticə və qaliblər barədə bilgi verilmir.

AzadlıqRadiosunun bu barədə sorğuları da "Bakıelektrikşəbəkə" tərəfindən cavablandırılmayıb. ASC-nin İnsan Resursları və Xidmət İdarəsindən sorğuya verilən cavaba görə, "Bakelektrikşəbəkə" ASC göstərdiyi xidmətlərin təklif edilməsi şərtlərinə və onların qiymətlərinə, həmin şərtlərdə və qiymətlərdə dəyişikliyə dair informasiya verə bilər. Sorğunuz bununla əlaqədar olmadığından onun icrasının təmin edilməsi mümkün deyildir".

**PREZİDENTƏ "BAKIELEKTRİKŞƏBƏKƏ" HAQQINDA NƏ DEYİBLƏR?**

"Bakıelektrikşəbəkə"nin qeyri-şəffaf tenderləri, yeyintilər barədə hökumətdə də suallar yaranmağa başlayıb. Məsələn, AzadlıqRadiosu bu barədə prezident İlham Əliyevin xüsusi tapşırığı ilə yoxlama aparan Dövlət Nəzarəti Şöbəsinin rəyini əldə edib:



"Bakıelektrikşəbəkə" ASC təqribən 90 milyon manat məbləğində 236 müqaviləni dövlət satınalmaları haqqında qanunvericiliyin tələblərini pozaraq tender keçirmədən, razılıq almadan birbaşa bağlamış, bəzi malların alınmasına təcili zərurət yarandığını əsas gətirərək birbaşa müqavilələrin bağlanmasına icazə alsa da, bəzən müqavilələri razılıqdan 4-11 ay sonra imzalamış, bir sıra hallarda isə tenderdən yayınmaq məqsədi ilə malların məbləği süni surətdə ayrı-ayrı hissələrə bölüşdürülmüşdür.

Hər birinin qiyməti 145375,84 manat olan 2 transformatorun alınmasına təcili tələbatın yaranması əsası ilə icazə alınmasına baxmayaraq, həmin mallar xarici şirkətdən 8 ay sonra alınmış və bu müddətdən 5 ay sonra anbara mədaxil edilmişdir. Qeyd olunan müqavilədən 2 ay sonra eyni gücə malik 1 transformator yerli şirkətdən 28600 manata alınmışdır. Eyni zamanda 52,5 min manata "Avalon" markalı avtomobilin alınması və rayon idarələrində 231,3 min manat məbləğində cari təmir işlərinin aparılması icazə alınmadan həyata keçirilib".

"Bakıelektrikşəbəkə"nin tenderləri ilə əlaqədar suallarımızı Dövlət Satınalmalar Agentliyi cavablandırmayıb. "Santral Elektrik LTD"nin "Bakıelektrikşəbəkə" ilə tenderli və tendersiz münasibətləri barədə də suallarımıza cavab tapmırıq. Amma araşdırmalarımız "Santral Elektrik LTD"nin Rzayevlərin işıqlı biznesində yeganə halqa olmadığını göstərir.

**DÖVLƏT SİFARİŞİNİ ÖZ ŞİRKƏTİNƏ VERİB?**

Büdcədən maliyyələşən sifarişləri həyata keçirən "Göknur Bakı LTD", "GBS" MMC şirkətləri "Santral Elektrik"lə təkcə eyni ünvanı bölüşmür. Bu şirkətlərin təsisçi və rəhbərləri də Rzayevlər ailəsinin üzvləridir. "General Boards System" – GBS Məhdud Məsuliyyətli Cəmiyyətini Baba Rzayevin oğlu və qardaşı - Fuad Rzayev və Emin Rzayev 2003-cü ildə təsis ediblər. Şirkət elektrik avadanlıqları istehsalı ilə məşğuldur. GBS MMC-nin son işləri Bakı Beynəlxalq Hava Limanı, Muğam Teatrı, Park Bulvar və Landmark-n işıqlandırmasını təmin etmək olub.

2003-cü ildə yaradılmış "Gök-Nur Bakı LTD"nin Vergilər Nazirliyi reyestrindən çıxarılmış sənədlərində də Baba Rzayev təsisçi olaraq göstərilir. Digər təsisçi isə "Handa Group"dur. Bu şirkət sifarişlərini birbaşa sahibinin başçılıq etdiyi dövlət qurumundan - "Bakıelektrikşəbəkə"dən alıb.

Təkcə 2011-ci il üçün tender reyestrində göstərilənlərə görə, "Bakıelektrikşəbəkə"nin "Gök-Nur Bakı"ya rəsmi müqavilələr əsasında ödədiyi pulların ümumi həcmi: 338368,86 manatdır. "Gök-Nur Bakı LTD" müxtəlif növ kabellərin istehsalı və quraşdırılması ilə məşğuldur.

***Yazının tam mətnini AzadliqRadiosu.az saytında oxuyun.***

***Durna Səfərli, Xədicə İsmayılova***





"250 plyus" gerçəkliyə fərqli baxışdır. AzadliqRadiosu.az saytında gülüş doğuran və düşündürən videosüjetlərə siz də baxın.

- SOCARın Sulutəpə metodu
- Kim bilir, Azərbaycanın ən hündür zirvəsi hansıdır? Şahdağ?
- 1 milyard pulu 6 aya necə xərcləməli?

# Azərbaycanda mobil telefonlar nə üçün qeydiyyata alınacaq?



**Azərbaycanda hökumət mobil telefonlardan istifadəyə nəzarəti gücləndirir. Bu məqsədlə Nazirlər Kabineti «Mobil cihazların qeydiyyatının aparılması Qaydası»nı təsdiqləyib. Başqa sözlə, bundan sonra ölkədə istifadə olunan bütün mobil cihazlar, o cümlədən mobil telefonlar qeydiyyata alınacaq. Belə bir qərarın qəbul edilməsinə səbəb «Terrorçuluq barədə bilə-bilə yalan məlumatların yayılması hallarının qarşısının alınmasına dair Kompleks Tədbirlər Planı»nın icrasını təmin etməkdir.**

Qərara əsasən, mobil cihazların qeydiyyat sisteminin təşkili Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinə həvalə olunub. Bu sistemə mobil telefonların bir sıra göstəriciləri daxil ediləcək, məsələn, mobil telefonların IMEI-kod adlanan beynəlxalq identifikasiya nömrəsi, telefonun mobil şəbəkə nömrəsi, SİM kartın seriya nömrəsi, eləcə də mobil cihaz tipinin təsdiq kodu.

**YENİ QAYDALAR MOBİL TELEFON OĞURLUĞUNUN QARŞISINI ALA BİLƏR**

Bu qeydiyyat sistemindən keçməyən mobil telefonların istifadəsi isə mümkün olmayacaq, çünki mobil operatorlar bu cür telefonlara xidmət göstərməyəcəklər. Yeni qaydaya görə, ölkəyə həm şəxsi istifadə, həm də satış və digər sahibkarlıq fəaliyyəti məqsədi ilə mobil cihaz gətirənlər də bu malları qeydiyyat mərkəzinə müraciət etməklə qeydiyyatdan keçirməlidirlər. Mobil telefonu itən və ya oğurlanan şəxs isə qeydiyyat mərkəzinə müraciət edə bilər ki, həmin telefona xidmət göstərilməsi məhdudlaşdırılsın.

**«DÜNYA TƏCRÜBƏSİNDƏ ŞƏBƏKƏ NÖMRƏSİ QEYDİYYATA ALINMIR, BU, ŞƏXSİ MƏLUMATDIR»**

Mütəxəssislərin fikrincə, bu qaydalar səmərəli tətbiq olunarsa bir sıra müsbət nəticələr verə bilər. Azərbaycan İnternet Forumunun prezidenti Osman Gündüzün dediyinə görə, məhz oxşar qaydaların mövcudluğuna görədir ki, əksər Avropa ölkələrində mobil cihazların oğurlanması halları təsadüfidir. Çünki bu qaydalar oğurluq mobil telefonun şəbəkədə istifadəsini mümkünsüz edir.

*İnformasiya texnologiyaları üzrə mütəxəssis Hacı Hacıyevə* görə isə, bu qaydaların tətbiqi təkcə terrorizmlə mübarizə yox, həm də ölkəyə mənşəyi məlum olmayan, keyfiyyətsiz, insan orqanizminə daha çox zərər yetirən mobil telefonların gətirilməsinin qarşısını almaq baxımından dəyərlidir. Amma mütəxəssislərin fikrincə, artıq təsdiqlənmiş qaydalarla bağlı müəyyən mənfi məqamlar da var. Məsələn, Osman Gündüz deyir ki, qeydiyyat sisteminə telefonun mobil şəbəkə nömrəsinin də salınmasına heç bir ehtiyac yoxdur, bu, əksinə, şəxsi məlumatların qorunması məsələsini ortaya çıxarır: «Dünya təcrübəsində də şəxsi nömrələr qeydiyyata alınmır, yalnız avadanlığın kodu qeydiyyata alınır».



Hacı Hacıyev

Mütəxəssislər belə bir qeydiyyat sistemin icrasının o qədər də asan başa gəlməyəcəyi fikrində olsalar da, artıq bir çox ölkələrdə, o cümlədən Keniya, Flippin, Türkiyədə ölkə daxilində mobil telefonların qeydiyyatdan keçirilməsi məcburidir. Türkiyədə də belə bir qaydanın tətbiqi ölkədə terror hadisələrinin qarşısını almaq məqsədi daşıyır.

***Ülkər Akifqızı***



## Yevda Abramov: «Martda amnistiya ola bilər»

*«Martda amnistiya aktı qəbul edilə bilər». Bunu AzadlıqRadiosuna Milli Məclisin İnsan Hüquqları Komitəsinin sədr müavini Yevda Abramov deyib. O xatırladıb ki, ölkənin birinci xanımı, deputat Mehriban Əliyeva belə təşəbbüslə 2 dəfə çıxış edib. Belə bir təşəbbüs növbəti dəfə də istisna edilmir. «Bu məsələ Prezident Administrasiyasında müzakirə olunur, Ədliyyə Nazirliyi amnistiyaya düşəcək maddələrlə bağlı rəy verir. Yalnız bundan sonra qərar qəbul olunur. Ona görə indidən kim deyə bilər ki, amnistiya olsa, nə qədər adamı əhatə edəcək? Hansı maddələr düşəcək?..».*

Komitənin başqa üzvü İqbal Ağazadə də AzadlıqRadiosuna deyib ki, mart ayı üçün amnistiya gözlənilir: «Bunu məntiq deyir. Qarşıdan «Eurovision» müsabiqəsi gəlir». Ombudsman Elmira Süleymanova da amnistiya təklifi ilə ötən ilin sonlarında prezidentə müraciət etmişdi. 1996-cı ildən indiyədək Azərbaycanda 9 amnistiya, 48 əfv fərmanı imzalanıb.

***Şahnaz Bəylərqızı***

## AzadlıqFM

Azadlıq Facebook Məkanında



Hər həftənin cümə axşamları **saat 23-dən gecəyarısınadək AzadlıqRadiosunun** yeni layihəsi **Facebook** məkanında baş verən maraqlı olayları diqqətinizə çatdırır, sosial şəbəkələrdəki yeniliklərlə sizi tanış edir, Facebookda xüsusi fəallığı ilə fərqlənən şəxslər ilə söhbətlər aparır. Bu yayım eyni vaxtda **AzadlıqRadiosunun Facebook Fane Pageində** də yayımlanır ki, Facebook istifadəçiləri canlı olaraq şərhlər yaza bilsinlər. **AzadlıqFM**-in arxiv səhifəsi də var.

# Bəxtiyar Hacıyev: Kovatia müxalifətinə


Bəxtiyar Hacıyev

**Gənc fəal Bəxtiyar Hacıyev həbsdən göndərdiyi yazıda növbəti dəfə Kovatia müxalifətinə məsləhətlərini bölüşüb. Həmin yazını diqqətinizə çatdırırıq.**

Kovatiada prezident seçkilərinə iki ilə yaxın vaxt qalsa da, artıq hakimiyyətin namizədinə qarşı bir neçə şəxs mübarizə aparacağını elan edib. Məhsul və xidmətlərdə seçimin çox olması müştərinin qərar vermə mexanizmini dayandırdığı kimi, seçkilərdə də namizədlərin çoxluğu seçimi çətinləşdirir, seçici aktivliyini azaldır və motivasiyanı aşağı salır. Seçimin çoxluğu bəzən seçimin yoxluğuna gətirib çıxara bilər («The Economist», «The tyranny of choice», Dec.18-31,2010). Buna görə müxalifət seçicilərə sadə seçim təklif etməlidir: hakimiyyətdən razıların namizədi narazıların namizədinə qarşı.

3-5 il əvvəldən müxalifət partiya rəhbərlərinin prezidentə namizəd olacağı bilinir. Bu isə partiyalar daxilində iddiası və nüfuzu olan, lakin partiyaların və ya müxalifətin namizədi olmayacağından əmin olan şəxslərin partiyalara resurs cəlb etməsinin qarşısını alır. İlkin seçkilərdə belə şəxslər qalib olmaq üçün öz resurslarını səfərbər edə bilərlər ki, bu da nəticədə müxalifətin güclənməsinə gətirər. Liderlərin müsbət keyfiyyətlərinə görə partiyalara yaxınlaşan vətəndaşlar kimi, mənfi keyfiyyətlərinə görə uzaqlaşanlar da var. İlkin seçkilər partiyaların, müxalifətin daxili dinamikasını da dəyişər.

2012-ci ili bütövlükdə bu prosesə həsr etmək lazımdır. Hər ay bir neçə regionda, seçki dairəsində ilkin seçkilər keçirilməlidir. Bununla həm rəsmi təbliğat-təşviqat müddətindən əvvəl təbliğat imkanı əldə oluna, həm seçicilərin rəyi, həm də onların müəyyən şəxslərə və məsələlərə yanaşması öyrənilə bilər. İlkin seçki bülletenləri vasitəsilə ölkə üzrə sorğu keçirilərək əsas seçkinin mesajları müəyyənləşdirilə bilər.

İlkin seçki keçirməklə müxalifət Kovatiada tələb etdiyi demokratik, şəffaf və azad seçki nümunəsini də göstərə bilər. Bundan əlavə, seçicilərin qalib görmək istədiyi şəxsin qalib obrazı da ilkin seçkilərdə formalaşdırıla bilər.

Təbii ki, ilkin seçkilərin riskləri də var. Hakimiyyətin müdaxiləsindən tutmuş, ilkin seçkinin qalibinin müəyyən elektorat tərəfindən qəbul edilməməsinə qədər. Lakin imkanlar risklərdən çoxdursa, müxalifət 2012-ci ili ilkin seçkilərə həsr etmək barədə düşünə bilər.

Qeyd: Kovatia - ABŞ-ın IRI və NDI təşkilatlarının Avropa və Avrasiya Gənc Siyasi Liderlər Şəbəkəsi üçün 2008-ci ildə İstanbulda təşkil etdiyi prezident seçkilərinin simulyası zamanı istifadə olunmuş bir xəyali dövlət adıdır.

Gənc fəal, ABŞ-ın Harvard Universitetinin məzunu Bəxtiyar Hacıyev ötən il martın 4-də həbs edilib. May ayında barəsində hərbi xidmətdən boyun qaçırma ittihamı ilə 2 il azadlıqdan məhrumetmə hökmü çıxarılıb. «Amnesty International» onu «vicdan məhbusu» sayır.

# 2012-ci ildə Azərbaycan iqtisadiyyatına proqnozlar

2012-ci İLDƏ AZƏRBAYCANDA ÜDM-in ARTIMI




2012-ci İLDƏ AZƏRBAYCANDA İNFLYASİYANIN ARTIMI




**İki əsas göstərici - ümumi daxili məhsul və inflyasiya üzrə 2012-ci ildə Azərbaycan iqtisadiyyatına hansı proqnozlar verilir? Azərbaycanın İqtisadi və Sosial İnkişaf Mərkəzi əsas qurumların verdiyi proqnozların cədvəlini düzəldib.**

Qeyri-hökumət təşkilatı olan Azərbaycan İqtisadi və Sosial İnkişaf Mərkəzinin fikrincə, ümumi daxili məhsulun artımına Beynəlxalq Valyuta Fondunun gözlənilmədən verdiyi 7% proqnozu realistik görünmür. Çünki bu il Azərbaycanda neft istehsalı əvvəki ildəki 46 milyon tondan 44 milyona düşəcək. Dünya iqtisadiyyatında tənəzzül qeyri-neft sektorunda ixracın kəskin artmasına imkan vermir. Azərbaycan iqtisadiyyatının neftdən asılılığı qalır və hətta arta bilər. Büdcənin 60 faizi Neft Fondundan gəlir.

Və nəhayət, aparılan iqtisadi islahatlar kəskin irəliləyişə zəmin yaratmayıb. Ancaq ola bilər BVF-nin proqnozu təbii qaz ixracının kəskin artacağına əsaslanır.

İnflyasiyaya gəlincə, Azərbaycan Mərkəzi Bankı inflyasiyanı birrəqəmli səviyyədə saxlayacağını elan edib. Bank bildirib ki, inflyasiya 6%-i keçməməlidir. 2011-ci ilin dekabrında Dövlət Statistika Komitəsinin məlumatına görə, inflyasiya 11% idi.

Dünyada iqtisadi vəziyyət kəskin pisləşməsə, Azərbaycanın xarici valyuta ehtiyatı manatın məzənnəsini nisbətən sabit saxlamağa imkan verməlidir.

# Ötən il ən çox hansı kitablar satıldı?




**Azərbaycanda ən böyük nəşriyyatlardan olan "Qanun" - çap etdiyi kitablar arasında 2011-ci ildə ən çox satılanların siyahısını elan edib:**

1. John Koleman, Komitet 300
2. Massonluq - Dünyanın hörümçək toru
3. Fredrik Beqbeder, Məhəbbət 3 il yaşayır
4. Qabriel Qarsia Marquez, 100 ilin tənhalığı
5. Qoroskop 2012
6. Den Braun, Mələklər və iblislər
7. Patrik Züskind, Ətriyyatçı
8. Corc Oruell, 1984
9. M.Əmin Rəsulzadə, Stalinlə bağlı xatirələrim
10. Albert Camus, Yad
11. Qabriel Qarsia Markes, Sənin qar üzərindəki izinlə
12. Z.K.Bjezinski, Böyük şahmat taxtası
13. Den Braun, Da Vinçi Şifrəsi
14. Bəhram Çələbi, Zina Passajskaya
15. Fyodor Dostoevski, Qumarbaz
16. Jostein Gaarder, Sofinin Dünyası
17. Bernhard Şlink, Qiraətçi
18. Qabriel Qarsiya Marquez, Patriarxın payızı
19. Qurban Səid, Əli və Nino
20. Çingiz Abdullayev, Ölümü özün seç

*Azərbaycanda ən böyük kitab satışı şəbəkələrindən olan - "Əli və Nino" da 2011-ci ildə ən çox satdığı kitabların siyahını açıqlayıb.*

1. Q. Səid, Əli və Nino
2. X.Hüseyni, Çərpələng uçuran
3. F.Beqbeder, Məhəbbət üç il yaşayır
4. Q. Paşayeva, Onun sevgi məktubları
5. P.Koelho, Kimyagər
6. Ç.Abdullayev, Mavi mələklər
7. Q.Q.Markes, 100 ilin tənhalıgı
8. J.Koleman, Komitet 300
9. Ç.Abdullayev, Insan ovu
10. D.Braun, Da Vinci şifrəsi

# «Oskar»a namizədlər seçilir

*Amerika Kino Sənəti və Elmlər Akademiyası "Oskar"a namizədləri müəyyənləşdirmək üçün səsvermə siyahılarını öz üzvlərinə yollayıb. Akademiyanın 5 min 783 üzvü namizədlərin taleyini həll edəcək. Səsvermənin nəticələrini PricewaterhouseCoopers adlı beynəlxalq auditor şirkəti hesablayacaq. Bülletenlər ən geci yanvarın 13-də həmin şirkətə təhvil verilməlidir. Bütün bölümlər üzrə nominantlar yanvarın 24-də açıqlanacaq.*

Yanvarın 4-də Akademiya artıq vizual effektlər nominasiyası üzrə finalçıları - 10 filmlik qısa siyahısını elan edib:

"Captain America: The First Avenger";
"Harry Potter and the Deathly Hallows: Part 2";
"Transformers: Dark of the Moon";
"X-Men: First Class."
"Hugo";
"Mission: Impossible — Ghost Protocol";
"Pirates of the Caribbean: On Stranger Tides";
"Real Steel";
"Rise of the Planet of the Apes";
"The Tree of Life."

# Da Vinçinin "Madonna…"sı tənqid edildi

Fransada Luvr muzeyinin 2 eksperti bu sənət ocağının nüfuzlu Məşvərətçilər Komitəsindən çıxdıqlarını bildiriblər. Etirazın səbəbi Leonardo da Vinçinin "Madonna və müqəddəs Anna ilə körpə" rəsminin düzgün bərpa edilməməsidir. Fransanın bütün dövlət muzeylərində bərpa işlərini yönəldən sənət biliciləri -Seqolen Berqeon Lanql və Luvrun rəngkarlıq şöbəsinin keçmiş baş qoruyucusu Jan-Pyer Küzinenin fikrincə, Da Vinçinin 500 yaşlı rəsminə parlaqlıq artıran bərpaçılar rəssamın niyyətini köklü dəyişikliyə uğradıblar.


The Virgin and Child with St. Anne

Xatırladaq ki, "Madonna və müqəddəs Anna ilə körpə" rəsminin bərpasına daha öncələr də cəhd göstərilib. Son restavrasiya 17 il əvvəl aparılsa da, daha sonralar Luvr muzeyi kimyəvi yayıcıların Leonardoya xas yumşaq fırçalamaya xələl gələ biləcəyini əsas tutaraq bu işi yeniləməyə qərar vermişdi. Yanvarın 3-də ekspertlər son bərpa variantını təkrar dəyərləndiriblər. Yekun rəy tezliklə açıqlanacaq.

## AzadliqRadiosu.az saytında həmçinin oxuyun



Zeynal Məmmədli:" **Yeni ilin qulağına nə pıçıldayım?"**



ELÇİN: **"O manqurt agentlərin bir qismi elə mənim öz ətrafımda idi"**




**Hollivudun ən çox qazanan aktyor cütlükləri**



Aqşin Yenisey: **"Mən Azərbaycan dilinin atasıyam"**



**Məşhur dissident yazıçı vəfat etdi**

# İran dünya ilə internet əlaqəsini kəsir



*Deyəsən, İran hökuməti internetin içində "polis" olmaqdansa, interneti, ümumiyyətlə, qapatmaq qərarına gəlib. Bu barədə İran İnformasiya Təşkilatının rəsmi nümayəndəsi Peyam Karbasi açıqlama verib. O bildirib ki, İranda «intranet» adlı milli internet fəaliyyətə başlayacaq və vətəndaşlara yalnız ölkə daxilində intranetdən istifadəyə icazə veriləcək: «Bu, internet deyil, intranetdir. Yəni yalnız ölkə daxilini əhatə edən milli internetdir. Bununla da İranın tezliklə dünya ilə internet əlaqəsi qalmayacaq».*

P.Karbasi deyib ki, iki həftəyə qədər işə düşəcək intranetin sürəti 2 Mbit/s olacaq. İran rəsmiləri bildirirlər ki, bu, "'Əsl halal internet" olacaq, yəni İslami qaydalardan kənara çıxmayacaq. İlkin məlumata görə, intranet ilk mərhələdə normal internetlə paralel istifadədə olacaq, sonra isə bütün ölkəni əhatə edəcək, normal internetə kütləvi çıxış olmayacaq. Qeyd edək ki, Şimali Koreya, Kuba, Myanmar kimi dövlətlər ikili şəbəkədən xeyli vaxtdır istifadə edirlər. Ölkə vətəndaşlarına internetdən istifadəyə icazə yoxdur, onlar intranetə girə bilərlər. Bəzi totalitar ölkələr isə yalnız turistlərə internetdən istifadə etməyə icazə verirlər.

İran interneti onun İslam qaydalarına uyğun olmadığını söyləyərək qapatmaq istəyir. Amma müstəqil ekspertlər düşünür ki, əsas səbəb İranın inqilabdan qorxmasıdır.

**Rövşən Qənbərov**

# ABŞ-ın Olimpiadaya göndərəcəyi ilk hicablı qız




Ibtihaj Muhammad

London Olimpiadasında Birləşmiş Ştatları müsəlman qılıncoynadanı təmsil edə bilər. Əgər İbtihaj Muhammad yarışma iştirakçılarının sırasına düşə bilsə, onda o, qılıncoynatma üzrə qadınlar arasında ilk müsəlman idmançı olacaq. Həm də meydançaya hicabla çıxan ilk xanım. Hazırda İbtihaj Muhammad həftədə 40 saat məşq edir. Xanım etiraf edir ki, həm də etiqadı baxımından Olimpiya oyunlarında iştirak etmək, qalib çıxmaq arzusundadır: "Uşaq ikən məni bu idman növündə maraqlandıran amillərdən biri – idmançıların uzunqollu köynək və uzun şalvar geyməsi idi. Bilirdim ki, İslam qaydalarına uyğun gələn forması olan idmanı tapmaq çətin olacaq".

Əvvəllər futbol, voleybol, tennislə məşğul olan İbtihaj 12 yaşından sonra qılıncoynatmaya meyil göstərib. Ciddi-cəhdlə 2012-ci il Olimpiya Oyunlarına hazırlaşan müsəlman xanım yarışmaların Ramazana təsadüf edəcəyindən çəkinmir: "Artıq bir dəfə Ramazan vaxtı təlim baza toplantısında olmuşam. Axşama qədər ac-susuz qalmaq problem yaradırdı. Axı orqanizm uzun müddət susuz qalanda yaralar gec sağalır, əzələlər gərginləşir. Amma bu məsələ məni qəti qorxutmur. Oruc – mənim həyatımın bir hissəsidir".

İbtihaj anlayır ki, hicabla döyüş meydanına çıxması diqqətdən kənarda qalmayacaq, nə qədər olmasa da, insanlar onun müsəlman olmasına adi yanaşmayacaqlar. Məhz buna görə də qılıncoynadan xanım olimpiadaya gedib qələbə qazanmaq istəyir: "Əgər bu idman mənim etiqadıma mane olsaydı, onunla məşğul olmazdım".

# Bakıda intihar etmək istəyən həbsə düşdü



*Yanvarın 4-də 28 yaşlı Zaqatala sakini Pərviz Mikayılov Paraşüt qülləsinə çıxaraq özünü atmaq istəyib. Bulvara toplaşanlar intihara cəhd edən şəxsi fikrindən daşındırmaq üçün Bakı Biznes Mərkəzinin şüşələrinə üzərinə «Həyatı Sev!» sözləri yazılmış plakatlar yapışdırıblar. Əraziyə çağırılan psixoloq Paraşüt qülləsinə qalxıb. Onun səylərindən sonra oğlan qüllədən enməyə razı olub.*

*Eurasianet.org saytı yazır ki, bu hadisə Azərbaycanda psixi sağlamlıq məsələlərinə qeyri-adi münasibəti göstərdi:* «Bir gün sonra bu hadisəyə görə cinayət işi açılmasaydı, həmin hadisə adi bir intihar cəhdi olardı. Mikayılovu xəstəxanaya salmadılar. O, xuliqanlıqda təqsirli bilinib iki aylıq həbs cəzası aldı. Belə görünür, Bakıdakı hakimin ağlına gəlməyib ki, intihar etmək istəyən gəncə psixiatrik müayinə lazım ola bilər. Əvəzində hakim ictimai asayişin qeydinə qalıb.

Ümumdünya Səhiyyə Təşkilatının hesabatına görə, Azərbaycanda psixi sağlamlığa dair nə dövlət siyasəti var, nə də bu siyasəti həyata keçirəcək idarə. Ancaq ölkədə ictimai asayişi pozmağa görə sərt qaydalar mövcuddur. Bəlkə məhkəmə qərara gəlib ki, Azərbaycan həbsxanasında iki ay keçirmək müalicəyə bəs edər? Söhbət saxlanma şəraitinin ağır, bəzən həyat üçün təhlükəli olan həbsxanalardan gedir. Bu barədə ABŞ Dövlət Departamentinin Demokratiya, İnsan Haqları və Əmək Bürosu hesabatlarında da qeyd olunur.

Yəqin Mikayılov cəzasını ağzınacan dolu, lazımi qidalanma, istilik və ventilyasiyanın olmadığı bu həbsxanalardan birində keçirsə, onun təzədən Paraşüt qülləsinə çıxmasına Bakı sakinləri təəccüblənməməlidirlər».

# Kosmik aparat hara düşəcək?



Parisli həvəskar astronom Thierry Legault Rusiyanın yerə düşməkdə olan «Fobos-Qrunt» kosmik aparatını lentə ala bilib. 2011-ci il noyabrın 9-da Rusiyanın Marsa göndərdiyi kosmik aparat hesablanmış orbitə çatmayaraq yerə düşməkdədir. Rusiya Federal Kosmik Agentliyinin məlumatına görə, bu aparatın 200 kiloqramlıq hissəsi yanvarın 10-dan 21-nə qədər yerə düşə bilər. Bunun daha çox yanvarın 15-də baş verəcəyi ehtimal edilir. Agentlik hesab edir ki, aparatın 30-a qədər parçası gəlib yerə çata bilər.

# Araşdırma: **Kişilər və qadınlar fərqli xarakterə malikdirlər**



Kişilər və qadınlar həqiqətən bir-birindən çox fərqli xarakterə malikdirlər. 10 min nəfər üzərində aparılmış araşdırmadan sonra bu qənaətə gəlinib. Araşdırmanın nəticələrinə görə, hər bir cinsin özünəməxsus xarakteri var. Qadınlar daha həssas, istiqanlı və hissiyyatlı olurlar. Kişilər üçün isə əksinə, emosional sabitlik, dominantlıq, qaydaları dərketmə və ayıqsayıqlıq daha xarakterikdir. Buna qədər belə hesab olunurdu ki, qadınlarla kişilərin xarakteri arasında o qədər də böyük fərq yoxdur. Ancaq araşdırmadan məlum olur ki, kişilərlə qadınlar fərqli xarakterlərə malikdir. Onların yalnız 18 faizi qarşı cinsin xüsusiyyətlərini paylaşır.

Araşdırmanın müəlliflərindən biri - Mançester Universitetinin doktoru Paul Irwing deyir: «Mühəndislik sahəsində çox az qadın tapa bilərsiniz. İndiyə qədər bunu fərdlərin xarakterləri ilə izah edə bilməzdiniz. Belə düşünülürdü ki, qadınlarla kişilər arasında fərq çox azdır. Ancaq bizim araşdırmamız bunu təkzib edir...».

***«Daily Telegraph» qəzeti***

# «Neolit» restoranında atəş açan şəxs həbs edilib

Yanvarın 2-də «Neolit» restoranının qarşısında odlu silahla 1 nəfərə xəsarət yetirən Bakı sakini Şahin Hüseynli saxlanılıb. Bu barədə Baş Prokurorluq məlumat yayıb. Silah tətbiq etməklə xuliqanlıqda ittiham olunan Şahin Hüseynli barəsində həbs-qətimkan tədbiri seçilib.

Məlumata görə, Şahin Hüseynli avtomobilini restoranın qarşısında düzgün saxlamadığı üçün restoranın əməkdaşları ilə aralarında mübahisə yaranıb. Bundan sonra o, avtomobilinin yük yerində gəzdirdiyi qoşalülə ov tüfəngindən restoranın giriş qapısına atəş açıb. Restoranda istirahət edən insanlar vahiməyə düşərək restoranı tərk edib. Bu zaman foyedə olan bir nəfər atəş nəticəsində müxtəlif xəsarətlər alıb. Cinayət işi üzrə istintaq davam etdirilir.

# AzadlıqRadiosunda verilişlər:

| | |
|---|---|
| 8:00 | Qafqaz Qovşağı /Azadlıq Bölgələrdə / Kontekst / Şəffaflıq / Overtime |
| 9:00 | İz / Şəffaflıq / İşdən sonra |
| 10:05 | Qərb musiqisi |
| 11:00 | Xəbərlər |
| 11:05 | Qərb musiqisi |
| 12:00 | Xəbərlər |
| 12:05 | Qafqaz Qovşağı / Qaynar Xətt / Can Bakı / Iz / Şəffaflıq / 14-24 / Şəffaflıq / Azadlıq Bölgələrdə |
| 13:00 | Xəbərlər |
| 13:05 | Qərb musiqisi |
| 14:00 | Xəbərlər |
| 14:05 | Overtime / Kontekst / Qaynar Xətt / Can Bakı / Pen club / Overtime / Iz / Şəffaflıq |
| 15:00 | Xəbərlər |
| 15:05 | Qərb musiqisi / Qaynar Xətt / Can Bakı |
| 15:30 | Amerikanın Səsi / İz |
| 16:00 | Xəbərlər |
| 16:05 | Qərb musiqisi / İşdən sonra |
| 17:00 | Xəbərlər |
| 17:05 | İşdən sonra |
| 18:00 | Xəbərlər |
| 18:05 | İşdən sonra / Pen Klub |
| 19:00 | Qərb musiqisi |
| 20:00 | Xəbərlər |
| 20:05 | Kontekst / Azadlıq Bölgələrdə / Şəffaflıq / Qaynar Xətt / İslam və Demokratiya / 14-24 / İz |
| 20:30 | Amerikanın Səsi / Qafqaz Qovşağı / 14-24 |
| 21:00 | Qərb musiqisi |
| 22:00 | Xəbərlər |
| 22:05 | Kontekst / 14-24 / Şəffaflıq |
| 23:00 | Xəbərlər |
| 23:05 | Overtime / İşdən sonra / AzadlıqFM / Overtime |
| 00:00 - 8:00 | Amerikanın Səsi / Qərb musiqisi |

**Qeyd:** Kəsr xətti ilə verilmiş – eyni saatlara düşən verilişlər həftənin günlərindən asılı olaraq növbə ilə təkrar gedir...

# Simsiz teleqraf

## Qızlara yox, «Stop»a bax!




***Bunu dekabrın 19-da Bakının mərkəzi küçələrindən birində çəkmişəm. Yüklədi: Mehman***

Sizdə də maraqlı video, foto və ya səs yazısı varsa bizə göndərin. Materialı kompyuterinizdən yükləmə səhifəsinə daxil olmaqla, yaxud MMS kimi mobil telefondan yollaya bilərsiniz. Ehtiyac varsa anonimliyi təmin edirik.

**Azərbaycandan:** (050) 213-56-30,

**Xaricdən:** (+420) 602 517 052

**Görüntüləri elektron poçtla da yollamaq olar:**
efir@azadliqradiosu.az

# AzadliqRadiosu.az®

**necə dinləməli...**

24 saat

**Mobil telefonda canlı:** İndi 3G, GPRS və ya Wi Fi-la radiomuzu canlı dinləmək olur... Ətraflı: **AzadliqRadiosu.az**-da

# AzadlıqRadiosu Facebook-da




**facebook.com/azadliqradiosu**

**Qaynar Xətt:** **436-77-41**

**SMS:** 050/ 744-10-17
**MMS:** 050/ 213-56-30

Bizimlə əlaqə:

**E-mail:** efir@AzadliqRadiosu.az



Azərbaycan Respublikası Ədliyyə Nazirliyində mətbu nəşrlərin reyestrinə daxil edilib, №3080

**"Fərqli düşüncə" jurnalının xüsusi buraxılışı**

Təsisçi və redaktor: Ş.A.Namazov

Bülleten redaksiyada səhifələnib, "Qanun" mətbəəsində çap olunub
Mətbəənin ünvanı: Bakı, Tblisi prospekti, 2-ci Alatava, 9

Redaksiyanın ünvanı: Bakı, F.Şahbazov küçəsi, 18
email:fdjurnal@gmail.com
Tiraj: 10000 nüsxə
Pulsuz